первую очередь ощущают педагоги при работе со слабыми и неуспевающими студентами. Там, где понимается педагогическая цель, анализируется проблемная ситуация, активизируются учащиеся, досконально изучаются отдельные компоненты предмета. Учитель как личность живет во взаимоотношениях с ним учеников. Опыт показывает, что интерес учащихся в большей степени сосредоточен на уроке, основанном на живом общении и диалоге. Путь исследования укрепляет творческое мышление у студентов. XXI век оценивается как век интеллекта и творчества в формировании личности. При этом развитие творческого мышления зависит от развития личности и уровня ее сформированности как гражданина. Обучение – качество педагогической деятельности напрямую зависит от творчества педагога, уровня профессионализма, применения новых педагогических технологий в учебном процессе.

## PSYCHOLOGICAL AND PEDAGOGICAL ASPECTS OF THE ROLE OF INNOVATIONS IN THE FORMATION OF QUALITATIVE CHANGES IN EDUCATION

***Gasanova Leyla Aga***

***Summary***

Difficulties in personalizing pedagogical demands and planning practical methods that meet the requirements of development are first of all felt by teachers when working with weak and underachieving students. Where the pedagogical goal is understood, the problem situation is analyzed, students are activated, individual components of the subject are thoroughly studied. The teacher as a personality lives in the students' relationship with him. Experience shows that students' interest is more focused on a lesson based on live communication and dialogue. The way of research strengthens creative thinking in students. The 21st century is valued as the age of intelligence and creativity in the formation of personality. In this case, the development of creative thinking depends on the development of personality and the level of its formation as a citizen. Training – the quality of teaching activities directly depends on the creativity of the teacher, the level of professionalism, the application of new pedagogical technologies to the teaching process.

***Rəyçi: dosent İbrahimov Cəfər***
***Psixologiya kafedrasının 01 fevral 2023-cü il tarixli iclasın 10 saylı protokolu***
***Daxil olduğu tarix 06 fevral 2023-cü il***

**UOT: 159.9**

## İNTELLEKTUAL İNKİŞAF VƏ TƏDRİSİN KEYFİYYƏTİNİN ƏSAS PRİORİTETLƏRİ

***Prof. İbrahimov Cəfər Hüseyn oğlu***
***Gəncə Dövlət Universiteti***
***ibrahimov –cefer @ list. ru***

**Xülasə:** *Psixologiyada təhsilin keyfiyyətinin diqqət mərkəzində olması. Ümumi intellekt səviyyəyə uyğun təlim uğurlarını şərtləndirən amillər. Şagirdlərin təlim motivasiyası. Yeni innovativ metodlardan istifadənin zəruriliyi. Müəllim – şagird – valideyn münasibətlərinin təlim fəaliyyətinin keyfiyyətli tədrisinə təsiri. Şagirdlərdə məntiqi təfəkkürün formalaşması və yaddaşın yeni biliklərlə zənginləşməsi. Həyata keçirilən islahatlar prosesində yeni konsepsiyaların yaranması.*

**Açar sözlər**: intellekt səviyyə, təhsilin keyfiyyəti, təlim uğurları, innovativ metodlar, məntiqi təfəkkür, müasir dərs.

**Ключевые слова**: уровень интеллекта, качество образования, успешность обучения, инновационные методы, логическое мышление, современный урок.

**Key words:** intelligence level, education quality, learning success, innovative methods, logical thinking, modern lesson.

Müasir dövrdə təhsil müəssisələrinin əsas vəzifəsi intellektual səviyyəli, mənimsədiyi bilik və bacarıqlardan istifadə etməyi bacaran, mənəvi - əxlaqi keyfiyyətlərə yiyələnmiş, milli düşüncəli şəxsiyyətin yetişdirilməsindən ibarətdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2013-cü il 24 oktyabr tarixli sərəncamə ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" sənədində təhsilin keyfiyyəti başlıca strateji prioritet elan olunmuş, ümumi təhsil müəssisələrinin şagird və məzunlarının keyfiyyət göstəricilərinin yaxşılaşdırılması aktual məsələ kimi irəli sürülmüşdür[1].

Bütün dövrlərdə təhsilin keyfiyyəti cəmiyyətin diqqət mərkəzində olmuş və onun təkmilləşdirilməsi, inkişafı böyük əhəmiyyət kəsb etmişdir. Təhsil və cəmiyyət həmişə əlaqədar olmuş, biri digərinin inkişafına kömək etmişdir. Hər bir cəmiyyətin özünəməxsus inkişaf konsepsiyası olmuş və ona uyğun təhsil sferası formalaşmışdır. Müasir dövrdə təhsilin keyfiyyəti dedikdə şagirdlərin standartlara uyğun bilik səviyyəsi başa düşülür. Eyni zamanda buraya təkcə bilik və bacarıqlar deyil, həmdə şəxsiyyəti şərtləndirən keyfiyyətlər, dəyərlər, səriştələr münasibətlər onun inkişafında mühüm atributlar kimi qiymətləndirilir.

Məlumdur ki, təlimə qabilliyi ümumi intellektdən fərqli spesifik bir qabiliyyət kimi fərqləndirmək olduqca çətin bir problemdir. Ümumi intellekt təlim uğurlarını şərtləndirən əsas amil olmasa da onun bu kontekstdə nəzərdən keçirilməsini məqsədəuyğun hesab etmək olar. İndiyə qədər aparılan tədqiqatlar ümumi intellekt testləri və təlimə qabillik üzrə göstəricilərin korrelyasiya əmsalının [0,03; 0,65] aralığında olduğunu göstərir. Təlim nəticələrinin təhlili də göstərir ki, ümumi intellekt səviyyə ilə təlim uğuru arasındakı əlaqə xətti asılılıqla ifadə olunur. Misal üçün, ümumi intellekti yüksək olan şagirdlərin intellekt səviyyələri ilə təlim uğuru göstəricilərinin korrelyasiyası müsbət olsa da, kifayət qədər dinamik deyil.

Pedaqoji psixologiyada təlim uğuru ilə intellektin inkişaf səviyyəsi arasındakı bağlılığa dair zəngin təcrübi material toplanmışdır. Məsələn Veksler testi ilə aparılan tədqiqatlar göstərir ki, təhsil uğuru qeyri – verbal intellektə nisbətən daha çox verbal intellekt səviyyəsi ilə korrelyasiya olunur.Göstərilən nəticələri ümumiləşdirərkən belə qənaətə gəlmək olar ki, yüksək intellektual səviyyəyə malik şagirdlərin təlim uğurlarının aşağı olmasının bir neçə səbəbi ola bilər:

Birincisi təlim motivlərinin aşağı olması: ikinci, məzmunun şagirdlər üçün maraqsız olması; üçüncü, təlim strategiyalarının şagirdləri lazımınca fəallaşdırmaması; dördüncü, şagirdlərin fərdi və ya ailə ilə bağlı problemlərinin mövcudluğu; beşinci, müəllimin tədris və davranış üslubunun bəzi şagirdlər üçün uyğun olmaması və s.

Mövcud "İntellektual hədd nəzəriyyəsi"nə görə elə bir intellektual hədd var ki, yalnız bu həddən yuxarı göstəriciyə malik şagirdlər təhsildə uğurlu nəticələr əldə edə bilirlər. Lakin bu göstəricinin həmin həddən çox olması, təlim uğurunun da mütənasib yüksəkliyini şərtləndirmir. Zəruri intellektual həddən sonra uğura təsir edən amillər bunlardır: mövcud qiymətləndirmə sistemləri, müəllimlərin tələbkarlığı, şagirdlərin təlim motivasiyası, təlimdə stimullaşdırma amili, öyrənənin iradə möhkəmliyi, maraq sahəsi və s.

Etiraf etməliyik ki, müasir dövrdə təlimin texniki vasitələrindən, əyani vəsaitlərdən istifadə etmədən təlimin keyfiyyətini yüksəltmək və yeni tədris proqramlarının tələblərini ödəmək qeyri – mümkündür. Təcrübə göstərir ki, dərsdə müəllimin izahı ilə əyaniliyin birləşdirilməsi çox vacib məsələdir. Görkəmli rus alimi, psixoloqu və pedaqoqu K.D.Uşinski həmin məsələlərdən bəhs edərək yazır: "Eyni hadisəni eyni dərəcədə istedadlı iki uşağa birinə şəkillər üzrə, o birinə şəkilsiz nağıl edin və o şəklin uşaq üçün nə qədər əhəmiyyətli olduğunu başa düşərsiniz".[4 ] . Bu gün təlim fəaliyyətinin keyfiyyəti dedikdə, təhsilin müəyyənliyini bildirən, onun xassələrinin məcmusunda təzahür edən obyektiv və ümumi xarakteristika başa

düşürük. Onun sayəsində proses başqa cür yox, məhz təlimi digər proseslərdən fərqləndirən amil kimi araşdırılır. Təlim fəaliyyətinin keyfiyyətini, nəticəsini qiymətləndirmək məqsədilə bir sıra təsviredici metodikalardan istifadə olunur. Onlardan aşağıdakıları göstərə bilərik:

-müəllimlər tərəfindən müəyyənləşdirilmiş proqnozun əldə edilməsi;

-müəllimlər tərəfindən düşünülmüş və təşkil edilmiş diaqnostik situasiyalarda şagirdlərin əxlaqının qiymətləndirilməsi;

-psixoloji göstəricilərin, şagirdin həyatında istifadə edilən hər cür hərəkətin, fəaliyyətin qiymətləndirilməsi: necə etməyi bilir (intellektual göstərici); həyata keçirməyi bacarır (iradi göstərici); reallaşdırmaq istəyir (emosional göstərici).

Təhsildə keyfiyyətin təmin edilməsi və onun səmərəli idarə olunması, öyrənənlərdə yeni peşəkarlıq kompetensiyalarının formalaşdırılması üçün təlimin məzmununa və metodlarına yeni yanaşmaların tətbiqini tələb edir. Bu halda peşəkarlıq kompotensiyalarının strukturuna aşağıdakı komponentləri daxil etmək lazımdır: koqnitiv; tənzimləyici (yönəldici); kommunikativ; fərdi (şəxsi); refleksiv (qeyri – iradi)[ 2 ].

Aparılmış təhlillər göstərir ki, peşəkar komponentlər refleksiv proseslərin təsiri nəticəsində formalaşır. Ona görə də qeyri – iradi komponentin aşağıdakı formalarını bir – birindən ayırmağı bacarmaq lazımdır:

-retrospektiv (keçmiş təcrübənin tənqidi anlaşılması, dərk edilməsi);

-situativ (cari vəziyyətin, situasiyanın real qiymətləndirilməsi);

-perseptiv (fəaliyyətin nəticəsini əvvəlcədən qavramaq).

Bu komponentlər öyrənənin refleksiv prosesləri səmərəli həyata keçirməsinə və yüksək özünüdərkə imkan yaradır[3].

Təhsilin keyfiyyətinə təsir edən amillərdən biri də yeni innovativ metodlardan İnformasiya – Kommunikasiya Texnologiyalarından (İKT) səmərəli istifadə olunan yaradıcı dərsdir. Bu da ilk növbədə müəllimin səriştəli və bacarıqlı olması ilə bağlıdır. Təlim prosesində tədrisin keyfiyyətini yüksəltmək üçün müəllim – şagird – valideyn münasibətlərinin düzgün qurulması da az əhəmiyyətli məsələ deyildir. Bəzi hallarda təhsilin keyfiyyətinin aşağı olması müəllimlərdə yeni pedaqoji təfəkkürün formalaşmaması, onların keçmiş təhsil sistemindən uzaqlaşmaq istəməmələri, valideynlə məktəb arasında sıx əlaqə yarada bilməmələri ilə izah edilir.

Bizim müşahidə dairəsində olan Gəncə şəhəri 40 saylı tam orta məktəb şəhərin qabaqcıl məktəbləri sırasındadır. Burada öz işinin peşəkarı olan müəllimlərin sayı çoxdur. Lakin bu potensialın olduğu məktəbdə bir sıra problemlərin həllində çətinliklər vardır. Çünki yeniliyin tətbiqi heç də asanlıqla mümkün olmur. Müəllimlərdə yeni təfəkkür tərzinin formalaşması, onların keçmiş təsirlərdən uzaqlaşmaları, geniş dünyagörüşü tam yeniləşdirmələri o qədər də asan məsələ deyildir. Ancaq tədris prosesində müəllim – şagird – valideyn münasibətlərində keyfiyyət baxımından inkişaf nisbətən ləng gedir. Bu da, ilk növbədə son zamanlar müxtəlif xarakterli dəyərlər sisteminin formalaşması, bazar iqtisadiyyatına keçid, cəmiyyətin mənəvi həyatında elmin, mədəniyyətin, təhsilin rolunun artması ilə əlaqədardır. İndi dünya təcrübəsində ardıcıl olaraq vahid tədris proqramlarında, dərsliklərdə, tədris müəssisələrində onların müxtəlifliyinə, rəngarəgliyinə diqqət və meyl artır. Təhsil müəssisələrində keyfiyyətin əldə edilməsi daha prioritet sahəyə çevrilir.

Müasir psixologiyada təlim fəaliyyətinə bir neçə komponent vahidinə: təlim məsələləri, təlim fəaliyyəti, özünənəzarət və özünüqiymətləndirmə kimi baxılır. D.B.Elkonin yazır: “Təlim məsələsi təkcə şagirdin dərsə və ya evdə yerinə yetirdiyi tapşırıq deyil. Hər şeydən əvvəl bu, bütöv tapşırıq sistemidir. Tapşırıq sisteminin yerinə yetirilməsi nəticəsində göstərilmiş elmi sahəyə aid olan geniş həcmli sualların həlli zamanı daha ümumi üsullar mənimsənilir və aşkar edilir”. Təlim məsələsini konkret praktik məsələdən fərqləndirmək lazımdır. Təlim məsələləri ümumi və ya fərdi ola bilər. Fərdi təlim məsələsində bir mövzudan digərinə keçid əvvəlcədən təşkil olunur. Təlim məsələsi sistemi tədris prosesində şagirdin

bütün mənimsəmə müddətində motivasiya tonusunu yaradır və dəstəkləyir. Məqsədin mövcudluğu, məlum olduğu kimi, fəalığı artırır. Müvafiq materialın öyrənilməsi uşaq üçün məntiq yaradır və şagirdin təlim şəraitinə "daxil olunması"nı təmin edir. Bununla əlaqədar müəllim tərəfindən qoyulmuş məqsədin qəbul edilməsi, məqsədin təhlili, onun nailiyyəti mərhələlərinin ardıcıllığının planlaşdırılması üçün şəraitin yaradılması çox vacibdir. Eyni zamanda şagird yaxın və uzaq məqsədləri görməlidir.

Motivasiyanın formalaşması üçün şagirdin təlim fəaliyyətini tam dərk etməsi çox vacibdir. A.A.Leontyevə görə təlimə yiyələnmək onu "bitirmək" yox, yaşamaq lazımdır. Şagird üçün vacibdir ki, təlim onun həyatına daxil olub, həyatının mənasını kəsb etsin.

A.K.Markova hesab edir ki, təlim – idrak motivlərinin formalaşmasının əsas yolu şagird tərəfindən yeni biliklərin əldə olunmasından ibarətdir. Bununla məktəblilərdə motiv göstəriciləri qeyd olunur: a) materialla aktiv işləmə bacarığı, onu müxtəlif şəkillərdə dəyişmək və işin üsulunu hissələrə ayırmaq; b) əgər müəllim tələb etməsə belə, müsbət nəticə əldə etdikdən sonra da iş üsulunun təhlilinə qayıtma istəyi; c) bir nəticənin alınması üçün bir neçə mümkün üsulları tutuşdurmaq bacarığı; ç) əgər daha tez nəticə almaq istəyi iş üsullarının təhlilinə və s. mane olsa belə üsullara uyğunlaşma bacarığı". [5]

Təhsil sahəsində yüksək keyfiyyətə nail olmaq üçün resursların yaradılması əsas məsələlərdən biridir. Əldə olunan bilikləri, məntiqi təfəkkürün formalaşmasını, mühakimə, dərketmə, qavrama fəallığının formalaşmasını yoxlamaq məqsədilə yaş səviyyəsinə uyğun resursların yaradılması inkişaf dinamikasının izlənməsinə zəmin yaradır. Aparılan müşahidələr göstərir ki, təlim fəaliyyətinə yeni yanaşmaların tətbiqi şagirdlərin yaddaşının yeni biliklərlə zənginləşdirilməsinə deyil, həm də təfəkkürün daim inkişaf etdirilməsi əsasında daha çox öyrənməyə, şəxsi keyfiyyət və qabiliyyətlərin qazanılmasına səbəb olur. Təhsil sistemində uğurla həyata keçirilən islahatlar prosesində yeni konsepsiyalar, məzmun standartları, inteqrativ fənlər, təhsil texnologiyaları, qiymətləndirmə mexanizmləri, təlim vasitələri, yeni dərslik və dərs vəsaitləri yaranmışdır. Bütün bunlar təhsildə yeni nailiyyətlərin qazanılmasına yönəlmiş innovasiyalardır. İnnovasiyaların idarəolunması baxımından hər bir məktəbin, təhsil müəssisəsinin yeniləşmə prosesində üç mərhələ daha çox məqsədəuyğun sayılır:

-təşəkküi (yeni kollektivin yaranması və ya kollektivin böyük hissəsinin təzələnməsi);

-fəaliyyət (təlim – tərbiyə prosesinin ənənəvi, stabil proqram və pedaqoji texnologiyalar əsasında işinin təşkili mərhələsi);

-inkişaf (yeni məzmun, forma və texnologiyaların yaranması və tətbiqi mərhələsi).

İnnovasiya texnologiyalarının tətbiqi kreativ pedaqoji təfəkkürə əsaslanır. Bu isə öyrənmə prosesində fərdin yaradıcılıq qabiliyyəti, yeni ideyaların yaradılması və qəbul edilməsinə hazır olmağı ehtiva edir. Dərsdə şagirdlərin müstəqil biliklər qazanmalarına şərait yaradılarkən, müəllim özünün bələdçilik funksiyasını yerinə yetirir. Dərsə bir texnoloji proses kimi yanaşılır. Müasir dərsə verilən tələblərə uyğun olaraq öyrədənlə öyrənən arasında, şagirdlərin öz aralarında və məktəblə valideynlər arasında münasibətlər yeniləşir. Müəllim bələdçi, istiqamət verən, şagird tədqiqatçı, "kəşf edən" olur. Lakin bu halda da, dərsin səmərəli nəticə verməsi müəllimin səriştəliliyindən asılıdır. Müəllim bu gün ilə gələcək arasında körpüdür. Bu körpünün sağlamlığı onun keyfiyyətli tədrisetmə bacarığından asılıdır.

### *Ədəbiyyat*

1.Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. //Azərbaycan məktəbi. 2013, №5. s.5-17

2.Rzaquliyeva N. Keyfiyyətli təhsil günün tələbidir. //Azərbaycan məktəbi. 2011.,№5. s.23-32

3. İbrahimov F. Keyfiyyətin idarə olunmasının bəzi aspektləri barədə. //Azərbaycan məktəbi. 2015.№2. s.47-52

4.Uşinski K.D. Seçilmiş pedaqoji əsərləri. Bakı, Azərnəşr, 1953. 314s.

5.Маркова А.К. //Вопросы психологии. 1978., №3. с.140

**ИНТЕЛЛЕКТУАЛЬНОЕ РАЗВИТИЕ И ОСНОВНЫЕ ПРИОРИТЕТЫ КАЧЕСТВА ПРЕПОДАВАНИЯ**

***Проф. Ибрагимов Джафар Гусейн оглы***

***Резюме***

Особое внимание уделяется на качество образования в психологии. Факторы, определяющие успешность обучения на уровне общего интеллекта. Учебная мотивация учащихся. Использование новых инновационных методов. Влияние отношений учитель – ученик – родитель на качество образовательной деятельности. Формирование логического мышления у учащихся и обогащение памяти новыми знаниями. Появление новых концепций в процессе проводимых реформ.

**INTELLECTUAL DEVELOPMENT AND THE MAIN PRIORITIES OF THE QUALITY OF TEACHING**

***Prof. Ibrahimov Cafar Huseyn***

***Summary***

Particular attention is paid to the quality of education in psychology. Factors determining the success of training at the level of general intelligence. Learning motivation of students. Use of new innovative methods. The influense of teacher – student – parent relationships on the quality of educational activities. Formation of logical thinking in students and enrichment of memory with new knowledge. The emergence of new concepts in the process of ongoing reforms.

***Rəyçi: Dosent Aslanova Zülalə***
***Psixologiya kafedrasının 01 fevral 2023-cü il tarixli iclasın 10 saylı protokolu***
***Daxil olma tarixi 14 mart 2023-cü il***

**UOT: 82.**

## AŞIQ ŞƏMŞİR VƏ SƏMƏD VURĞUN DOSTLUĞU

***Ömərova Ələviyyə Vaqif qızı***
***Bakı Dövlət Universiteti Qazax filialı***
***alaviyya.omarova@mail.ru***

**Xülasə*:*** *Səməd Vurğunla Aşıq Şəmşir arasında gözəl dostluq olmuşdur. Səməd Vurğun elə ilk görüşdən bir dost kimi Aşıq Şəmşirin qəlbində özünə əbədi yuva qurmuşdur. Hətta bu dostluq Şəmşir üçün qardaşlıqdan da əziz olmuşdur. Ona görə Aşıq Şəmşir Səməd Vurğunun ölümündən sonra ona yazdığı bir şeiri məhz "Qardaş" adlandırmışdır. Bu şeirin "Qardaş" adlandırılması qətiyyən təsadüfi deyil.*

*Səməd Vurğunun ölümündən sonra Aşıq Şəmşir çox soyuq üzlərlə, yad baxışlarla qarşılaşmış, Səməd Vurğunun ona qardaş olduğunu daha yaxından hiss etmişdir.*

*Aşıq poeziyasında dağlar mərdlik, əzəmət, ucalıq rəmzi kimi göstərilməklə yanaşı, onun füsunkar gözəllikləri sənətkarları həmişə vəcdə gətirmiş və şeirlərinin əsas mövzusuna çevrilmişdir. Ulu babalarımız dağı mifoloji düşüncənin obyektinə çevrilmiş, ona tapınmış, ulu əcdad sayaraq sığınmışdır. Təsadüfi deyildir ki, dağ obrazının çox fəal məna sisteminə təkcə aşıq şeirində deyil, nağıllarımızda, dastanlarımızda və s. sıx-sıx rast gəlirik. Dağa inam, ona sığınma, ondan kömək diləmə o qədər qüvvətli olmuşdur ki, dağ Azərbaycan folklor düşüncəsinin ən fəal və həmişəyaşar obrazına çevrilmişdi.*